# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 29** **Bakı şəhəri, 31 yanvar 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq və "Sosial sığorta haqqında", "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 780-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli 572 nömrəli, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2004-cü il 17 iyun tarixli 77 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 yanvar tarixli 1965 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin razılaşdırılmış təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 41; 2010, № 4, maddə 359; 2012, № 12, maddə 1385; 2013, № 7, maddə 874, № 8, maddə 1010, № 12, maddə 1641; 2015, № 12, maddə 1598; 2017, № 3, maddə 502; 2020, № 9, maddə 1224) ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. Aşağıdakı məzmunda 1.1-1-ci bənd əlavə edilsin:

"1.1-1. Bu Qaydalara uyğun olaraq müəyyən edilən ödənişlər diplomatik xidmət əməkdaşlarına diplomatik nümayəndəlikdə işə təyin olunduqları tarixdən bu Qaydaların 4 nömrəli əlavəsində diplomatik nümayəndəliklər üzrə müəyyən edilmiş valyutada ödənilir. Məzuniyyət, ezamiyyət, əmək qabiliyyətini müvəqqəti itirmə dövrləri, eləcə də qanunvericilikdə işçinin iş yerinin və orta əməkhaqqının saxlandığı digər hallar istisna olmaqla, diplomatik xidmət əməkdaşları diplomatik nümayəndəlikdə təyin olunduqları iş yerində hər hansı səbəbdən öz vəzifələrini 30 təqvim günündən artıq müddətdə icra edə bilmədikdə, onlara dövlət məvacibi yalnız milli valyutada ödənilir.".

1.2. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Bu Qaydalar (6.8-ci bənd istisna olmaqla) diplomatik nümayəndəliklərdə inzibati-texniki xidməti həyata keçirən şəxslərə və onların ailə üzvlərinə şamil olunur.".

1.3. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

**"2. Diplomatik nümayəndəliklərdə işləyən diplomatik xidmət əməkdaşlarına ödənilən dövlət məvacibi və aylıq əlavə**

2.1 Diplomatik nümayəndəliklərdə işləyən diplomatik xidmət əməkdaşlarına Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəyyən edilən dövlət məvacibi və təyin olunduqları diplomatik nümayəndəliyin yerləşdiyi dövlətin və onun müvafiq şəhərinin sosial-iqtisadi və maddi-məişət şəraiti nəzərə alınmaqla aylıq əlavə ödənilir.

2.2. "Sosial sığorta haqqında", "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 780-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli 572 nömrəli, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2004-cü il 17 iyun tarixli 77 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 yanvar tarixli 1965 nömrəli Fərmanının 2-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfirlərinin, Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar yanında daimi nümayəndələrinin dövlət məvacibi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təminedici idarə rəisinin aylıq vəzifə maaşından, aylıq vəzifə maaşına əlavələrdən (ən yüksək olanı tətbiq edilməklə) və aylıq vəzifə maaşının 25 faizi məbləğində mükafatdan ibarətdir.

2.3. Diplomatik nümayəndəliklərdə işləyən digər diplomatik xidmət əməkdaşlarının dövlət məvacibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən diplomatik nümayəndəliyin rəhbərinin dövlət məvacibinin faiz nisbətində müəyyən edilir.

2.4. Aylıq əlavənin məbləği dövlət məvacibinə bu Qaydaların 2-1.1-ci bəndinə uyğun olaraq tətbiq edilən fərqləndirici əmsallar əsasında müəyyən olunur. Aylıq əlavə diplomatik nümayəndəlikdə işləyən diplomatik xidmət əməkdaşlarının dövlət məvacibindən qanunla müəyyən olunmuş qaydada məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta, icbari tibbi sığorta haqları (bundan sonra – digər icbari ödənişlər) və gəlir vergisi çıxıldıqdan sonra qalan vəsaitə fərqləndirici əmsal tətbiq edilməklə alınan məbləğlə həmin qalan vəsait arasında fərqə bərabər götürülür.".

1.4. Aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

**"2-1. Diplomatik nümayəndəliklərdə işləyən diplomatik xidmət əməkdaşlarının dövlət məvacibinə fərqləndirici əmsalın tətbiq edilməsi**

2-1.1. Diplomatik nümayəndəliklərdə işləyən diplomatik xidmət əməkdaşlarının dövlət məvacibindən qanunla müəyyən olunmuş qaydada gəlir vergisi və digər icbari ödənişlər çıxıldıqdan sonra qalan vəsaitin ABŞ dollarında ekvivalenti müəyyən edilir və həmin məbləğə bu Qaydaların 2-1.3-cü bəndinə uyğun olaraq müəyyən edilən fərqləndirici əmsal tətbiq edilir. Alınan məbləğin diplomatik xidmət əməkdaşlarına ödənişi bu Qaydaların 1.1-1-ci bəndi nəzərə alınmaqla müvafiq valyutada həyata keçirilir.

2-1.2. Diplomatik nümayəndəliklərdə işləyən diplomatik xidmət əməkdaşlarının yaşayış səviyyəsinin diplomatik nümayəndəliyin yerləşdiyi dövlətin və onun müvafiq şəhərinin sosial-iqtisadi və maddi-məişət şəraitinə uyğun təmin edilməsi üçün onların dövlət məvacibinə tətbiq edilən fərqləndirici əmsallar müəyyən edilərkən Birləşmiş Millətlər Təşkilatı (BMT) sistemində işləyən əməkdaşlar üçün BMT-nin Beynəlxalq Mülki Xidmət üzrə Komissiyası tərəfindən tərtib edilən əməkhaqqı şkalasında D1 səviyyəsinin 10-cu pilləsi üzrə əməkhaqqından və BMT-nin xidmət məntəqələri (xarici dövlət və onun müvafiq şəhəri) üzrə müəyyən edilən əmsallardan istifadə edilir. Xarici İşlər Nazirliyinin əsaslandırılmış və Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında BMT-nin xidmət məntəqələri üzrə müəyyən edilən əmsallardan fərqli əmsallar tətbiq edilə bilər.

2-1.3. Diplomatik nümayəndəliklərdə işləyən diplomatik xidmət əməkdaşlarının dövlət məvacibinə tətbiq edilən fərqləndirici əmsal aşağıdakı düstura uyğun olaraq müəyyən edilir:

$$FƏ = \frac{QV_{UN}}{XDM} \times MƏ_{UN}$$

Burada:

FƏ - fərqləndirici əmsal;

$QV_{UN}$ - BMT sistemində işləyən əməkdaşlar üçün müəyyən edilmiş əməkhaqqı şkalasında D1 səviyyəsinin 10-cu pilləsinə uyğun vəzifə üzrə təsbit edilmiş xalis aylıq baza əməkhaqqından[1] yaşayış sahəsi, tibbi sığorta, pensiya təminatı, uşaqların ümumtəhsil müəssisəsində təhsili və avtonəqliyyat vasitəsinin istismarı üzrə xərclər çıxıldıqdan sonra qalan vəsaitdir. Xərclərin xalis aylıq baza əməkhaqqına nisbətdə xüsusi çəkisi aşağıda göstərilən şəkildə müəyyən edilir:

yaşayış sahəsi – 25%

tibbi sığorta – 7.9%

pensiya təminatı – 7.9%

uşaqların ümumtəhsil müəssisəsində təhsili – 3.9%

avtonəqliyyat vasitəsinin istismarı - 6.3%;

XDM – xalis dövlət məvacibi diplomatik nümayəndəlik rəhbəri üçün müəyyən edilmiş dövlət məvacibindən gəlir vergisi və digər icbari ödənişlər çıxıldıqdan sonra sərbəst qalan vəsaitin ABŞ dollarına olan ekvivalentdir;

$MƏ_{UN}$ – məntəqə əmsalı BMT-nin hər bir xidmət məntəqəsində işləyən əməkdaşlarına verilən əməkhaqlarının alıcılıq qabiliyyətlərinin eyniləşdirilməsi məqsədilə 1 aprel 2022-ci il tarixinə müəyyən edilmiş əmsaldır[2].

2-1.4. Diplomatik nümayəndəliklərdə işləyən diplomatik xidmət əməkdaşlarının xalis dövlət məvaciblərinin ABŞ dollarına olan ekvivalentinə tətbiq edilən fərqləndirici əmsallar bu Qaydaların 5 nömrəli əlavəsində müəyyən edilir.

2-1.5. Aşağıdakı hallarda fərqləndirici əmsallara yenidən baxılır[3]:

2-1.5.1. dörd ildə bir dəfə, BMT-nin əməkhaqqı sistemində yenidən baxılmasının nəticələrinə uzlaşdırılması məqsədilə;

2-1.5.2. diplomatik nümayəndəliklərin fəaliyyət göstərdiyi dövlətlərin inflyasiya göstəricilərinin və valyuta məzənnələrində baş verən dəyişikliklərin qiymətləndirilməsinin nəticəsindən asılı olaraq, zərurət yaranan dövlətlər və onların şəhərləri üzrə iki ildən bir;

2-1.5.3. diplomatik nümayəndəliyin rəhbərinin dövlət məvacibində dəyişiklik olduqda.

1.5. 6-cı hissə aşağıdakı redaksiyada verilsin:

**"6. Diplomatik xidmət əməkdaşlarına verilən məktəbyaşlı ailə üzvlərinin təhsil haqqı və müavinətlər**

6.1. Diplomatik xidmət əməkdaşları ilə birlikdə yaşayan məktəbyaşlı ailə üzvlərinin təhsil haqqının və bu Qaydaların 6.4-cü bəndində qeyd olunan təhsil müavinətinin ödənilməsi üçün tələb olunan vəsaitlər diplomatik nümayəndəliklərin xərclər smetasında nəzərdə tutulur.

6.2. Məktəbyaşlı ailə üzvlərinin təhsil haqqı hər bir məktəbyaşlı ailə üzvü üçün müvafiq təhsil müəssisəsi ilə bağlanılmış müqavilədə nəzərdə tutulan məbləğdə, lakin ayda 700 ABŞ dollarından və ya müvafiq valyutada onun ekvivalentindən çox olmamaq şərtilə ödənilir. Diplomatik nümayəndəliklərin rəhbərlərinin himayəsində olan məktəbyaşlı uşaqların təhsil haqqı isə diplomatik nümayəndəliyin yerləşdiyi dövlətin müvafiq təhsil müəssisəsi tərəfindən təqdim edilmiş sənədlər əsasında ödənilir.

6.3. Təhsil haqqı nəzərdə tutulmuş normadan yuxarı olduğu təqdirdə, həmin fərq diplomatik xidmət əməkdaşının vəsaiti hesabına ödənilir.

6.4. Diplomatik xidmət əməkdaşı ilə birlikdə yaşayan orta ixtisas və ali təhsilin bakalavr səviyyəsi üzrə əyani təhsil alan 23 yaşına qədər övladları üçün illik təhsil haqqının 50 faizi məbləğində, lakin ildə 6,000.0 ABŞ dollarından və ya müvafiq valyutada onun ekvivalentindən çox olmamaq şərtilə təhsil müavinəti verilir.

6.5. Diplomatik xidmət əməkdaşına qəbul edən dövlətdə onunla birlikdə yaşayan, həmin dövlətdə və ya üçüncü dövlətdə əmək fəaliyyəti ilə məşğul olmayan ərinə (arvadına) görə onun dövlət məvacibinə bu Qaydaların 2-1.1-ci bəndinə uyğun olaraq fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 6 (altı) faizi həcmində bu Qaydaların 1.1-1-ci bəndi nəzərə alınmaqla aylıq müavinət ödənilir.

6.6. Diplomatik xidmət əməkdaşına qəbul edən dövlətdə onunla birlikdə yaşayan 18 yaşına qədər hər bir uşağı üçün onun dövlət məvacibinə bu Qaydaların 2-1.1-ci bəndinə uyğun olaraq fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 2 (iki) faizi həcmində bu Qaydaların 1.1-1-ci bəndi nəzərə alınmaqla müavinət ödənilir.

6.7. Diplomatik xidmət əməkdaşına qəbul edən dövlətdə onunla birlikdə yaşayan yaşı 18-dən yuxarı əmək qabiliyyəti olmayan uşaqları üçün "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əlilliyi müəyyən edilmiş şəxslərə bağlı müavinətin ABŞ dolları ekvivalentində məbləğinə bu Qaydaların 5 nömrəli əlavəsi ilə müvafiq diplomatik nümayəndəlik üzrə müəyyən edilmiş fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğlə milli valyutada ödənilən müavinət arasında olan fərq həcmində müavinət bu Qaydaların 1.1-1-ci bəndi nəzərə alınmaqla müvafiq valyutada ödənilir.

6.8. Bu Qaydaların 2-1.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfirlərinə, Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar yanında daimi nümayəndələrinə və Azərbaycan Respublikasının baş konsullarına onların dövlət məvacibinə fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 25 (iyirmi beş) faizi, səfir müavini, daimi nümayəndənin müavini, müşavir-elçi, müşavir, konsul və birinci katib vəzifələrini tutan diplomatik xidmət əməkdaşlarına onların dövlət məvacibinə fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 15 (on beş) faizi, digər diplomatik xidmət əməkdaşlarına onların dövlət məvacibinə fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 10 (on) faizi həcmində aylıq təmsilçilik müavinəti ödənilir.

6.9. Diplomatik nümayəndəliklərdə işə təyin olunan diplomatik xidmət əməkdaşlarına tutduqları vəzifə üzrə dövlət məvacibinin 1 (bir) misli həcmində birdəfəlik yerləşmə müavinəti ödənilir.".

1.6. Aşağıdakı məzmunda 7.6-cı və 8.16-cı bəndlər və "Qeyd" hissəsi əlavə edilsin:

"7.6. Siyahısı bu Qaydaların 6 nömrəli əlavəsi ilə müəyyən edilmiş müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətlərdə faktiki fəaliyyət göstərən diplomatik nümayəndəliklərin diplomatik xidmət əməkdaşlarına onların dövlət məvacibinə bu Qaydaların 2-1.1-ci bəndinə uyğun olaraq fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 30 (otuz) faizi həcmində kompensasiya ödənilir. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi hər rübün əvvəlində bu Qaydaların 6 nömrəli əlavəsi ilə müəyyən edilmiş müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətlərdə faktiki olaraq fəaliyyət göstərməyən diplomatik nümayəndəliklər barədə məlumatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir. Diplomatik nümayəndəliklərin fəaliyyət göstərdikləri müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətlərin siyahısında dəyişiklik edilməsinə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin vəsatəti əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən baxılır.";

"8.16. Diplomatik nümayəndəliklərdə işə təyin olunan diplomatik xidmət əməkdaşlarına birdəfəlik yerləşmə müavinəti, yol xərci və yüklərin daşınması ilə bağlı xərclər diplomatik nümayəndəliyin xərclər smetası hesabına Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən ödənilir və sonradan müvafiq diplomatik nümayəndəliyin xərclərinə aid edilir.";

**"Qeyd.** Bu Qaydaların məqsədləri üçün Azərbaycan manatının ABŞ dollarına olan məzənnəsi, həmçinin Avronun, Böyük Britaniya funt sterlinqinin, İsveçrə frankının və Yaponiya yeninin ABŞ dollarına olan çarpaz məzənnəsi Azərbaycan Respublikası Mərkəzi Bankının 2022-ci il iyulun 1-nə olan məzənnə göstəricilərinə əsasən müəyyən edilir.".

2. Azərbaycan Respublikasının digər dövlət orqanlarının xarici ölkələrdə fəaliyyət göstərən nümayəndələrinə təminat və kompensasiyaların verilməsi qaydaları müəyyən ediləndək həmin şəxslərin təminatları 2023-cü ilin 1 yanvar tarixinədək mövcud olmuş qaydada saxlanılsın.

3. Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**